## PSİXOLOGİYA PSYCHOLOGY ПСИХОЛОГИЯ

DOI: 10.36719/AEM/2007-2020/54/130-136

**Xədicə Eyvaz qızı Həbibullayeva**
Xəzər universiteti
Xadica.habibullayeva@gmail.com

# YENİYETMƏLƏRDƏ İNTERNET ASILILIĞI İLƏ AQRESSİV DAVRANIŞLAR ARASINDA ƏLAQƏNİN TƏHLİLİ

***Açar sözlər:*** *İnternet asılılığı, aqressiv davranışlar, yeniyetməlik dövrü*
***Key words:*** *Internet addiction, aggressive behavior, adolescence*
***Ключевые слова****: Интернет-зависимость, агрессивное поведение, подростковый возраст*

## Giriş

*Məqsədi:* İnternet asılılığının subalt göstəriciləri ilə aqressiya göstəriciləri arasında əlaqənin müəyyənləşdirilməsindən ibarətdir.

*Aktuallığı:* İnternetin sürətli şəkildə inkişafı və artması tədqiqatların mütəmadi aparılması üçün şərait yaradır. Müxtəlif illərdə internet istifadəsinə olan ehtiyacların dəyişməsi araşdırmaların davamlı aparılmasının zəruriliyini formalaşdırır.

*Tədqiqatın obyekti:* Tədqiqat Nəsimi rayonu 266 saylı tam orta məktəbdə kiçik və böyük yeniyetmələr üzərində aparılmışdır. Araşdırmada 137 respondent iştirak etmişdir.

*Metodlar:* Tədqiqat müəyyən meyarlar əsasında, təsadüfi seçilmiş yeniyetmələr üzərində aparlmışdır. Yeniyetmələrdə internet asılılığı ilə aqressiv davranışlar arasında statistik əlaqənin təhlilindən ibarətdir.

*Nəticə:* Aparılan tədqiqatın nəticəsində internet asılılığının bəzi göstəriciləri ilə bəzi aqressiv davranışlar arasında əlaqə tapılmışdır. İrəli sürülən fərziyyə özünü doğrultmuşdur. İnternet əksikliyi göstəricisi ilə qəzəb göstəricisi arasında böyük statistik əhəmiyyətli əlaqə tapılmışdır. Tədqiqatın nəticələri bundan sonra aparılacaq elmi işlərin təhlili və məqsədi üçün böyük rol oynayır.

Müasir yeniyetməlik psixologiyasının ən qabaqcıl alimlərindən biri olan G. Stanley Hall yeniyetməliyi "fırtına" dövrü adlandırmışdır. Hall araşdırmalarında bu dövrün bioloji amillər tərəfindən kontrol edildiyini irəli sürmüşdür. O, yeniyetməlik dövrünü impulsiv davranışlar və emosional dalğalanmalarla dolu olduğunu qeyd etmişdir (8, s.190). Hazırda internetin insanların gündəlik həyatlarına inteqrasiyası ilə birlikdə istifadəsi gündən günə artmışdır. Kumar və Mondalın 2018-ci il araşdırmalarına görə, son 10 il ərzində internet istifadəçilərinin sayında önəmli dərəcədə artım olmuşdur. 2018-ci ildə dünya internet istifadəçilərinin sayı 3,9 milyard, yəni dünya əhalisinin 51,2 %-ni təşkil etdiyi müəyyən olunmuşdur (2, s. 946).

İnternetin geniş istifadəsi həyatımızı daha sadələşdirərək, bir çox faydalar verməsinə baxmayaraq, bəzən sosial şəbəkələrin məqsədsiz istifadəsinə yol açır. Bu da insanın həyat keyfiyyətində dəyişikliyə səbəb olaraq funksionallığın və produktivliyin aşağı düşməsinə gətirib çıxarır. Virtual şəbəkələrin yöndəmsiz və məqsədsiz istifadəsi günümüzdə asıllığa səbəb olmaqdadır. Asılılıq, bir və ya bir neçə maddəyə qarşı həssaslığın ortaya çıxması, maddənin əldə edilmədiyi zaman fiziki və ya psixi simptomlarla qarşılanan, müalicə oluna bilən ancaq yenidən maddənin istifadəsi zamanı təkrarlana bilən bir xəstəlikdir.

Leeyə görə, internet asılılığı insanın davranışlarına hakim ola bilməməsi, internet istifadəsində həddindən artıq və təkrari davranışların yer almasıdır (16, s.7). Yeniyetmələr internetin faydalı tərəflərini dəyərləndirməkdənsə, daha çox sosial şəbəkələr, oyunlar və buna bənzər boş zaman keçirtmək kimi fəaliyyətlərə daha çox üstünlük verirlər (19, s.1991). İnternet asılılığı olan yeniyetmələrdə depressiya, aqressivlik və sosial izolyasiya səviyyəsinin yüksək olduğu aşkarlanmış və şəxsiyyətlərarası mün-asibətlərində ciddi dəyişikliklərə səbəb olduğu müəyyən olunmuşdur (5, s.119).

Yeniyetmələrdə internet asılılığın araşdırılması bir sıra psixoloji tədqiqatlarda öz əksini tapmışdır. İnternetin yeniyetmələrin həyat keyfiyyətinə təsiri və müxtəlif amillər ilə əlaqəsinin təhlili tədqiqatçıların diqqət mərkəzindədir. Yeniyetmələrdə yaranan internet asılılığının hansı amillərlə əlaqəli olmasının müəyyənləşməsi vacib məqsədlərdən biri olmuşdur. Onların həyat keyfiyyətinin aşağı düşməməsi üçün bır sıra dəstəkləyici proqramların tərtibi, ilkin olaraq tədqiqatların aparılması və bir sıra faktların sübutu ilə əlaqələndirilir. Yeniyetmələrdə internet asılılığı ilə bağlı bir sıra nəzəri və praktiki tədqiqatlar mövcuddur.

Andersonun apardığı 2015-ci il tədqiqatına görə, təqribi olaraq internet istifadəsi zamanı yetkin insanlar həftə içi 20 saat, yeniyetmələr isə 27 saat vaxt keçirlər. Bu qiymətləndirməyə görə həftə ərzində, hər bir şəxs öz zamanının 12-16 %-nin internetə sərf edir (10, s.301). Chisholm apardığı tədqiqatda 8-18 yaş aralığında olan şəxslərin gündə 8 saat texnoloji vasitələrdən istifadə etdiyini müəyyən etmişdir (14, s. 80). Berson isə xüsusən 12-18 yaş aralığında olan yeniyetmə qızların zamanlarının böyük bir qismini sosial şəbəkələrdə və mesajlaşaraq keçirdiklərini aşkarlamışdır (13, s.164). Hazırda televizor və sosial şəbəkələrin aqressiv davranışlara səbəb olduqları tapılmışdır. Mitrofan, Paul, Weich və Spencerin 2009-cu ildə apardıqları tədqiqata görə, uşaqların aqressiv davranışları ilə onların izlədikləri video və ya filmlər arasında əlaqə var (6, s. 84). Xüsusilə yeniyetmələr üzərində aparılan araşdırmalar göstərir ki, yeniyetmələrin izlədikləri zorakılığa istiqamətlənilmiş videolar onların sosial çevrələrinə və valideynləri ilə münasibətlərinə yüksək dərəcə də təsir edən amildir (7, s.178).

Anderson və Bushmanın apardıqları tədqiqata görə yeniyetmələrdə internet istifadəsində nəzarətin olmaması və zaman idarəsinin itirilməsi onlarda fiziki aqressiyaya səbəb olur. Bu halı yaşayan yeniyetmələr öz davranış və hisslərini kontrol etməkdə çətinlik çəkirlər (11, s.355). Holman və dostlarının yeniyetmələr üzərində apardıqları tədqiqata görə kontrolsuz şəkildə internetdən istifadə edən yeniyetmələrdə sosial inkişafın zəiflədiyi, özünüqiymətləndirmə probleminin yaranmasını aqressiv davranışların müşahidə olunduğu müəyyən olunmuşdur (3, s.168). Yeniyetmələrdə internet asılılığının yayılmasını 7 ölkə müqayisəli şəkildə aparmışdır. Tədqiqatlar Yunanıstan, İspaniya, Polşa, Almaniya, Rumıniya, Hollandiya və İslandiyada keçirilmişdir. Alınan nəticələr müqayisəli təhlil olunmuşdur. Oğlan və qızların nəticələri arasında statistik fərqlər tapılmışdır. İnternet asılılığının yayılma faizi ən kiçik İslandiyada (7,9 %), ən böyük isə İspaniyada (22,8 %) müəyyən olunmuşdur (20, s. 5).

Azərbaycanda isə internet asılılığının tədqiq edilməsi üçün internet asılılığı şkalası Xəzər universitetinin psixologiya departamentinin aparıcı müəllimi Mələk Kərimova tərəfindən adaptasiya olunmuşdur (18). 2013-cü ildə Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş elmi-praktiki konfransda AMEA İnformasiya Texnologiyaları İnstitutunun üzvləri Rəsmiyyə Mahmudova və Lətif Tarverdiyev tərəfindən "Uşaq və yeniyetmələrin internetin zərərli təsirlərindən qorunması problemləri" adlı nəzəri məqalə dərc olunmuşdur (1).

*Tədqiqatın material və metodları*

*İştirakçılar:* Tədqiqat Nəsimi rayonu 266 saylı tam orta məktəbində təsadüfi seçim üsulu ilə 137 respondentin tədqiqata cəlb olunması ilə keçirilmişdir. Tədqiqat 2 ay ərzində sinif bölgüləri əsasında aparılmışdır. Bu müddət ərzində 7, 8, 9, 10 və 11-ci siniflər olaraq ardıcıl şəkildə testlər keçirilmişdir. Test və razılıq vərəqəsi haqqında məlumatlar hər bir sinif bölgüsünə qrup şəklində izah olunmuşdur. Həmçinin tədqiqatın aparılma məqsədi və hədəfləri iştirakçılara izah edilmişdir. Qrup şəklində aparılan testləşdirmənin keçirilməsi zamanı respondentlərə müdaxilənin qarşısı alınmışdır.

Tədqiqata cəlb edilən respondentlər bir sıra meyarlar əsasında seçilmişdirlər:

- 12-17 yaş arası kiçik və böyük yeniyetmələr;
- Tədqiqatda iştirakı həm özü, həm də valideyni tərəfindən təsdiqlənən yeniyetmələr;
- Tədqiqata istəkli şəkildə razılıq verən yeniyetmələr;
- Fiziki və ya zehni pozuntuları olan yeniyetmələrin iştirakının olmaması.

Tədqiqatda iştirak etmək istəməyən yeniyetmələr etik standartların qorunulması məqsədi ilə tədqiqata cəlb olunmamışdır.

*Tədqiqatın mərhələləri:* Tədqiqatın dörd istiqamətdə aparılmışdır. İlkin istiqamət kimi tədqiqatın planı tərtib olunaraq, testlər seçilmişdir. Model kross-sektional olaraq müəyyən edilmişdir. Tədqiqatın bu mərhələsində respondentlərdən ayrı ayrılıqda tədqiqatın keçirilməsi üçün məlumatlı razılıq vərəqəsi ilə icazə alınmışdır. Tədqiqatın aparılma şərtləri ilə razı olmayan məktəblilər bu tədqiqata cəlb edilməmişdir. Tədqiqatın keçirilməsi zamanı ilkin olaraq çap formasında hazırlanan testlər iştirakçılar üçün qovluqlara yerləşdirilmişdir.

Tədqiqatın ikinci istiqamətində tədqiqatçı araşdırmanın məqsədini iştirakçılara izah edərək tədqiqatı istənilən zaman tərketmə hüquqlarının olduğunu bildirmişdir. Könüllü şəkildə aparılan tədqiqatdan alınan nəticələrin gizliliyi və anonimliyinin qorunması və yalnız elmi işlərin aparılmasında istifadə olunacağı respondentlərə şifahi şəkildə yenidən izah olunmuşdur. Tədqiqat Nəsimi rayonu 266 saylı tam orta məktəbdə keçirilmişdir. Tədqiqatda 137 respondent könüllü olaraq iştirak etmişdir. Bu müddət ərzində tədqiqatda iştirak edən şagirdlər oxuduqları sinif bölgüsu ilə ardıcıl olaraq testdən keçirilmişdir. Tədqiqat 2 ay ərzində davam etmişdir. Testlərin keçirilməsi hər bir respondentə izah olunmuş və qrup şəklində müdaxilə olmadan yekunlaşmışdır. Hissəvi şəkildə aparılan testləşdirmə 60-80 dəqiqə ərzində aparılmışdır.

Tədqiqatın üçüncü istiqaməti testlərdən əldə olunan məlumatların emalından ibarət olmuşdur. Göstəricilərin statistik analizi planlaşdırılmış istiqamətdə aparılmışdır. Nəticələrin işlənilməsi üçün SPSS 21.0 statistik proqram paketindən istifadə olunmuşdur. Əldə olunan aqressiya və internet asılılığı göstəriciləri arasında statistik əlaqənin müəyyənliyi üçün Pearson´s əmsalından istifadə olunmuşdur. Statistik əhəmiyyətliliyin qiymətləndirilməsi p<0,05 olaraq qəbul edilmişdir.

Tədqiqatın son istiqaməti olaraq əldə olunan nəticələr toplanılıb məqalə şəklinə salınmışdır. Sağlamlıq strategiyası təlim mərkəzi və 5 saylı uşaq poliklinikasının mütəxəsisləri tərəfindən tədqiqatın gedişatı və əldə olunan nəticələr müzakirə edilmişdir.

*İstifadə olunan testlər:* Tədqiqatda iki şkala istifadə olunmuşdur. İnternet asılılığı şkalası (İnternet addiction scale-İAS) bir neçə illər ərzində bir çox müəlliflər tərəfindən adaptasiya edilmiş və sual sayı ölkə və əhali dəyərlərinə görə standartlaşdırılmışdır. Tədqiqatda istifadə etdiyimiz testin sonuncu 2010-cu ildə Gunuc və Kayri müəlliflərinin adaptasiya etdikləri versiyadır. Bu sonuncu versiya Türkiyədə aparılmışdır. Bu versiyanın Azərbaycana adaptasiyada seçilmə məqsədi Türkiyə və Azərbaycan əhalisinin bir birilərinə yaxın milli-mənəvi dəyərlərə sahib olmasıdır.

Tədqiqatda istifadə olunan İnternet asılılığı şkalası Azərbaycanda ilk dəfə olaraq Xəzər universitetinin psixologiya departamentinin müəllimi Mələk Kərimova və Selim Gunuc tərəfindən etibarlılığı yoxlanaraq adaptasiya edilmişdir (17, s. 44).

Test 35 sualdan ibarətdir. Testin 35 sualı 4 subalt bölgü şəklində ayrılmışdır.

- Əksiklik subalt bölgü – 1-11 suallar;
- Nəzarət etməkdə çətinlik subalt bölgü – 12-21 suallar;
- Funksional pozulma subalt bölgü – 22-28 suallar;
- Sosial təcridolma subalt bölgü – 29-35 sualları əhatə edir.

Test likert tipindədir. Hər sualı yalnız bir qiymətləndirmə ilə cavablandırmaq olar. Testin sualları 1-bal "qəti razı deyiləm", 2-bal "razı deyiləm", 3-bal "qərarsızam", 4-bal "razıyam" və 5-bal "tamamilə razıyam" kimi qiymətləndirilir.

Tədqiqatda istifadə olunan digər şkala aqressiyanın ölçülməsində tez-tez istifadə olunan Buss-Perry aqressiya şkalasıdır. Buss-Durkee düşmənçilik testindən formalaşmış, 29 sual və 5 cavabdan ibarət likert tipli testdir. Test fiziki aqressiya, verbal aqressiya, hirs və düşmənçilik hisslərini ölçməyi hədəfləyir. Fiziki aqressiya subalt şkalası 9 bənd, verbal aqressiya subalt şkalası 5 bənd, hirs subalt şkalası 7 bənd, düşmənçilik subalt şkalası isə 8 bənddən ibarətdir. Bəndlər 1 bal – "qəti şəkildə qatılmıram", 2 bal – "qatılmıram", 3 bal – "qərarsızam", 4 bal – "qatılıram", 5 bal – "tamamilə qatılıram" cavabları ilə qiymətləndirilir.

Testin subalt göstəricilərinə aid olan bəndləri aşağıda verilmişdir:

- Fiziki aqressiya subalt şkalası – 2, 5, 8, 11, 13, 16, 22, 25, 29 bəndləri;
- Qəzəb subalt şkalası – 1, 9, 12, 18, 19, 23, 28 bəndləri;
- Düşmənçilik subalt şkalası – 3, 7, 10, 15, 17, 20, 24, 26 bəndləri;
- Verbal aqressiya – 4, 6, 14, 21, 27 bəndləri.

Şkalanın yalnız iki bəndinin cavablandırılması əksinə hesablanılır. Buna 9-cu (Sakit təbiətli insanam) və 16-cı bəndlər (İnternetdən istifadə etmədiyim zamanlarda belə interneti fikirləşirəm) aiddir.

*Verilənlərin statistik təhlili və izahı:* İnternet asılılığı ilə aqressiv davranışlar arasında statistik əlaqənin araşdırılması üçün Cohenə görə müəyyən olunan əmsal göstəricilərindən istifadə olunmuşdur. Pearson korrelyasiya əmsalı vasitəsi ilə əlaqələrin araşdırılması aparılmışdır. Aşkarlanan korrelyasiya əmsalının dərəcələndirilməsi r<0,10 əhəmiyyətsiz, r=0,10-0,30 kiçik ilə orta göstəricisini, r=0,30-0,50 orta ilə böyük göstəricisini və r>0,50 daha çox böyük əlaqə göstəricisini ifadə edir.

İnternet asılılığının əksiklik, nəzarət etməkdə çətinlik, funksional pozulma, sosial təcrid subalt göstəriciləri ilə Buss-Perry aqressiya testinin fiziki aqressiya, düşmənçilik, qəzəb və verbal aqressiya subalt göstəriciləri arasında statistik əlaqə araşdırılmışdır. Bu əlaqənin yoxlanılması üçün Pearson əmsalından istifadə olunmuşdur (Cədvəl 1.).

*Cədvəl 1. İnternet asılılığı və aqressiya göstəriciləri arasında əlaqənin statistik təhlili*

| | | Fiziki aqressiya | Düşmənçilik | Qəzəb | Verbal aqressiya |
|---|---|---|---|---|---|
| Əksiklik | Pearson korrelyasiyası (r.)<br>Sig.<br>Sayı | ,349''<br>,000<br>137 | ,257''<br>,002<br>137 | ,417''<br>,000<br>137 | ,010<br>,910<br>137 |
| Nəzarət etməkdə çətinlik | Pearson korrelyasiyası (r.)<br>Sig.<br>Sayı | ,311''<br>,000<br>137 | ,216'<br>,011<br>137 | ,314''<br>,000<br>137 | -,012<br>,893<br>137 |
| Funksional pozulma | Pearson korrelyasiyası (r.)<br>Sig.<br>Sayı | ,261''<br>,002<br>137 | ,182'<br>,033<br>137 | ,250''<br>,003<br>137 | ,022<br>,795<br>137 |
| Sosial təcrid | Pearson korrelyasiyası (r.)<br>Sig.<br>Sayı | ,167<br>,051<br>137 | ,204'<br>,017<br>137 | ,219''<br>,010<br>137 | -,121<br>,159<br>137 |

*('')=0,001 statistik əhəmiyyətlilik göstəricisi ifadə edir.*
*(')=0,05 statistik əhəmiyyətlilik göstəricisini ifadə edir.*

Aparılan statistik əlaqə zamanı əksiklik subalt göstəricisi ilə fiziki aqressiya arasında (r.=,349, p=,000) orta dərəcədə, düşmənçilik subalt göstəricisi arasında (r.=,257, p=,002) kiçik ilə orta dərəcədə, qəzəb subalt göstəricisi arasında (r.=,417, p=,000) böyük dərəcədə statistik əlaqə aşkarlanmışdır. Ancaq əksiklik subalt göstəricisi ilə verbal aqressiya subalt göstəricisi arasında (r.=,010, p=,910) əhəmiyyətsiz dərəcədə korrelyasiya və statistik əhəmiyyətsiz əlaqə aşkarlanmışdır.

Əksiklik subalt göstəricisi insanların internetdən kənar qaldıqları zaman özlərini narahat və sıxıntılı hiss etmələri və internet istifadəsinin kəsildikdə yaranan gərginliklərin yaranmasını xarakterizə edir. İnsanların internetin kəsilməsi ilə əlaqəli yaşadıqları sıxıntıların aqressiyanın növləri ilə əlaqəsinin olma ehtimalını gözdən keçirdikdə, əksiklik göstəricisi ilə qəzəb subalt göstəricisi arasında böyük korrelyasiyanın olduğu aşkarlanmışdır. Həmçinin bu əlaqənin düz mütənasib olması praktikada da öz əksini tapır. İnternet əlaqəsi qurmaqda və bu əlaqənin kəsilməsi zamanı çətinlik yaşayan insanların qəzəb hissini keçirməsi qaçılmazdır. Bu əlaqənin kəsilməsi qəzəbin artmasına səbəb olur ki, bu da göstəricilər arasında əlaqənin düz mütənasib olmasını sübut edir.

Fiziki aqressiya göstəricisi ilə əksiklik göstəricisi arasında orta dərəcədə korrelyasiya tapılmışdır. Bu əlaqənin statistik əhəmiyyətli şəkildə aşkarlanması, bu tip internet əksikliyini duyan insanların fiziki aqressiya tətbiq etmək ehtimalını bizə statistik cəhətdən sübut edir. Praktikada isə internet əlaqəsinin kəsilməsi ilə fiziki aqressiyaya baş vuran yeniyetmələrin davranışları məlumdur və bu əlaqə də düz mütənasib aşkarlanmışdır. Digər bir əlaqə düşmənçilik hissi ilə əksiklik göstəricisi arasında kiçik ilə orta dərəcədə statistik əlaqənin tapılmasıdır. İnternet əksikliyini yaşayan yeniyetmələrin düşmənçilik hisslərinin olması düz mütənasib aşkarlanmışdır.

Ancaq internet əksikliyi göstəricisi ilə verbal aqressiya arasında əlaqə aşkarlanmamışdır. Müəyyən olunan bu göstəricilər arasında əhəmiyyətsiz dərəcədə korrelyasiya görülmüşdür. İnternet əksikliyini yaşayan insanların verbal aqressiya göstəricisi arasında əlaqənin aşkarlanacağını gözlərkən, testlərin tətbiq olunduğu respondentlərin yaş həddini nəzərə almalıyıq. Tədqiqatda respondentlərin kiçik və böyük yeniyetmələr olması, onların internet əksikliyi yaşamaqlarını dilə gətirməmələri, verbal şəkildə hisslərin ifadə edilməməsi ehtimalı statistik təhillərlə sübut olunur. Həmçinin verbal aqressiyanın üzə çıxmaması fiziki aqressiyanın əksiklik göstəricisi ilə əlaqəsinə təsir edə bilmə ehtimalını yaradır.

İnternet asılılığı testinin subalt göstəriciləri ilə Buss-Perry şkalasının subalt göstəriciləri arasında əlaqələri təhlil etdikdə, bir çox əlaqələrin kiçik olduğu müəyyən olunmuşdur. Yalnız qəzəb subalt göstəricisi ilə əksiklik göstəricisi arasında böyük korrelyasiya aşkarlanmışdır.

Almaniyada keçirilmiş tədqiqatda isə internet istifadəsi ilə verbal aqressiya arasında əlaqə aşkarlanmışdır. Bu əlaqənin mövcudluğu bir sıra müxtəlif amillərdən asılı olduğu qeyd edilmişdir. Bu amillərə misal olaraq yeniyetmələrin ailə və sosial çevrələri ilə münasibətləri olmuşdur (9, s. 18).

İnternet istifadəsi zamanı nəzarət problemi yaşayan yeniyetmələrdə fiziki aqressiya (r.=,311, p=,000) və qəzəb (r.=,314, p=,000) subalt göstəriciləri ilə orta dərəcədə müsbət əlaqə aşkarlanmışdır. Əldə olunan nəticə internet istifadəsi zamanı nəzarətin itirilməsi yeniyetmələrdə fiziki aqressiya və qəzəb hissinin formalaşması ilə əlaqəlidir. İnternet istifadəsi zamanı nəzarət problemi ilə düşmənçilik subalt göstəricisi arasında (r.=,216, p=,011) kiçik əlaqə aşkarlanmışdır. Nəzarət etməkdə çətinlik subalt göstəricisi ilə verbal aqressiya (r.=-,012, p=,893) arasında əlaqə müəyyən olunmamışdır.

Anderson və Bushmanın apardıqları tədqiqata görə yeniyetmələrdə internet istifadəsində nəzarətin olmaması və zaman idarəsinin itirilməsi onlarda fiziki aqressiyaya səbəb olur. Bu halı yaşayan yeniyetmələr öz davranış və hisslərini kontrol etməkdə çətinlik çəkirlər (11, s. 355).

Yeniyetmələrdə funksional pozulma onların sosial çevrələrində münasibət problemləri yaşadıqlarını xarakterizə edir. Funksional pozulma ilə fiziki aqressiya (r.=,261, p=,002) və qəzəb (r.=,250, p=,003) göstəriciləri arasında kiçik ilə orta dərəcədə korrelyasiya olduğu aşkarlanmışdır.

Əldə olunan nəticə praktikada da özünü göstərir. Şəxsiyyətlərarası münasibətlərdə və ya ailə üzvləri ilə münasibətlərin davamiyyətində problem yaşayan yeniyetmələrdə qəzəb hissi və fiziki aqressiya görünür. Özünütəsdiq axtarışı aqressiyanın bu istiqamətləri ilə özünü biruzə verir. İnternetin istifadəsi ilə funksional pozulma yaşayan yeniyetmələr onlarda yaranan aqressiyanı sosial çevrələrində əks etdirirlər.

Holman və dostlarının yeniyetmələr üzərində apardıqları tədqiqata görə kontrolsuz şəkildə internetdən istifadə edən yeniyetmələrdə sosial inkişafın zəiflədiyi, özünüqiymətləndirmə probleminin yaranmasını aqressiv davranışların müşahidə olunduğu müəyyən olunmuşdur (3, s. 168).

Funksional pozulma ilə düşmənçilik göstəricisi arasında (r.=,182, p=,033) və kiçik əlaqə aşkarlanmışdır. Ancaq verbal aqressiya (r.=,022, p=,795) arasında əlaqə tapılmamışdır. Göstəricilər arasında əlaqələrin araşdırılması zamanı sosial təcrid ilə fiziki aqressiya (r.=,167, p=,051) və verbal aqressiya (r.=-,121, p=,159) arasında statistik əhəmiyyətli korrelyasiya tapılmamışdır. Bunu praktikada müşahidə edirik. İnternetin istifadəsi sayəsində sosial təcrid yaşayan yeniyetmələr izolyasiya olunaraq öz aqressiyalarını fiziki və verbal şəkildə ifadə edə bilmirlər. Aqressiyanın aktiv formada olmaması hisslərin və düşüncələrin boğulmasına səbəb olur ki, bu da başqa fəsadlara gətirib çıxardır. Sosial təcrid göstəricisi ilə düşmənçilik (r.=,204, p=,017) və qəzəb (r.=,219, p=,010) göstəriciləri arasında kiçik statistik əhəmiyyətli əlaqə tapılmışdır.

Yeniyetmələrin həyatında sosial çevrədən uzaqlaşmaq, internet vasitəsi ilə qurulan virtual dostluqların real şəxsiyyətlərarası münasibətlərə əvəz etmək, qurulan virtual dünyada özünütəsdiq axtarmaq və real hadisələrdən uzaqlaşmaq kimi dəyişikliklərin baş verməsi düşmənçilik və qəzəb hissləri ilə kiçik dərəcədə əlaqəli olduğu aşkarlanmışdır. Bu yeniyetmələrin internet vasitəsilə sosial təcridinin başqa amillərlə də əlaqəli olduğunu sübut edir.

İnternet vasitəsi ilə sosial izolyasiya yaşayan yeniyetmələr depressiv əhval ruhiyyədə olaraq, cəmiyyətdə özlərini təsdiq ehtiyacını virtual aləmdə tapmağa çalışırlar. Beləliklə, hisslərin və düşüncələrin cəmiyyətdə ifadəsi passiv forma alır və bəzən natamam şəkildə ifadə olunur (15, s. 12).

Türkiyədə yeniyetmələr üzərində aparılan tədqiqatda bizim apardığımız tədqiqat ilə oxşar statistik nəticələr əldə edilmişdir. Yəni verbal aqressiya ilə internet asılılığı şkalasının subalt göstəriciləri arasında əlaqə aşkarlanmamışdır. Türkiyədə yeniyetmələr üzərində aparılan tədqiqatdan fərqli olaraq, bizim tədqiqatda fiziki aqressiya və düşmənçilik göstəriciləri ilə internet asılılığı şkalasının bəzi subalt göstəriciləri arasında əlaqə aşkarlanmışdır (4, s. 225).

Aparılan tədqiqatın nəticəsində internet asılılığının bəzi göstəriciləri ilə bəzi aqressiv davranışlar arasında əlaqə tapılmışdır. İrəli sürülən fərziyyə özünü doğrultmuşdur. İnternet əksikliyi göstəricisi ilə qəzəb göstəricisi arasında böyük statistik əhəmiyyətli əlaqə tapılmışdır. Tədqiqatın nəticələri bundan sonra aparılacaq elmi işlərin təhlili və məqsədi üçün böyük rol oynayır. Tədqiqatın aparılmasında iqtisadi maraqlar güdülməmişdir. Kor tədqiqatın aparılması üçün şərait yaradılmamışdır. Tədqiqatda daxili etibarlılığı keçərli nəticə əldə edən Buss-Perry aqressiya şkalasının Azərbaycana adaptasiya olunması tövsiyə olunur. Tədqiqat yeniyetmələrin internet istifadəsi və aqressiv davranışları haqqında həm nəzəri, həm də praktiki cəhətdən geniş məlumatlara sahibdir. Bizim cəmiyyətimizdə bu istiqamətdə tədqiqatların aparılması praktik psixoloqlar üçün böyük əhəmiyyət daşıyır. Əldə olunan məlumatların yeniyetmələr ilə praktiki işlərdə istifadəsi tövsiyə olunur.

## Ədəbiyyat

1. Mahmudova R., Tarverdiyev L. Uşaq və yeniyetmələrin internetin zərərli təsirlərindən qorunması problemləri // AMEA, İnformasiya Texnologiyaları İnstitutu, 2013, ss. 46-49.
2. Aslan Nesibe. Ergenlerde internet bağımlılığı, yaygınlığı, nedenleri ve sonuçları üzerine bir araştırma // Uluslararası Sosyal Araştırmalar Dergisi, Cilt: 12, №: 65, Ağu., 2019, ss. 945-957.

3. Cömert T.İ., Kayıran S.M. Çocuk ve ergenlerde internet kullanımı // Ç. Dergisi, №: 10 (4), 2010, ss. 166-170.
4. Durak Ö.G., Ünal Ş., Erdoğan A., Bal F. Lise öğrencilerinde problemli internet kullanımı ile saldırgan davranışların ilişkisi: Özel Ahmet Şimşek Anadolu Lisesi örneği // Üçüncü Sektor Sosyal Ekonomi, 2018, №: 53(1), ss. 217-228.
5. Şahin C., Tuğrul M. İlköğretim öğrencilerinin bilgisayar oyunu bağımlılık düzeylerinin incelenmesi // Zeitschrift Für Die Welt Der Türken, №: 4(3), 2012, ss. 115-130.
6. Öz S., F. Öfke Yönetimi eğitiminin ergenlerde öfke ile başa çıkma ve iletişim becerilerine etkisi // TC. Dokuz Eylül Üniversitesi Eğitim Bilimleri, Enstitüsü Eğitim Bilimleri Anabilim Dalı, Rehberlik ve Psikolojik Danışmanlık Programı, Doktora tezi, İzmir: 2008, 194 s.
7. Arthur E. Jongsma., Peterson L.M., Mclnnis W.P., Bruce T.J. The child psychotherapy treatment planner. Wıley, 2014, 505 p.
8. Arnett J.G. Stanley Halls adolescence: Brilliance and Nonsense // History of psychology, Clark University, Vol. 9, №: 3, 2006, pp. 186-197.
9. Appel M., Stiglbauer, Batinic B., Holtz P. Internet use and verbal aggression: The moderating role of parents and peers // Journal Computers in Human Behavior, pp. 1-32.
10. Anderson C.A., Huesmann L.R. Human Aggression: A Social-Cognitive View // In Hogg MA, Cooper J. The Sage Handbook of Social Psychology, London: Sage Publications, 2003, pp. 296-323.
11. Anderson C.A., Bushman B.J. Effects of violent video games on agressive behaviour, agressive cognition, agressive affect, physiological arousel and prosocial behaviour: A metaanalysis of the scientific literature // Psychosocial Science, 2001, №: 12, pp. 353-359.
12. Allahverdipour H., Bazargan M., Farhadinasab A. and Moeini B. Correlates of video games playing among adolescents in an Islamic country // BMC Public Health, 2010, №: 10, 2010, pp. 1-7.
13. Berson I., Berson M. Digital literacy for effective citizenship // Social Education, 2003, №: 67(3), pp. 164-167.
14. Chisholm J.F. Cyberspace violence against girls and adolescent females // Annals New York Academy of Sciences, 2006, №: 1087, pp. 74-89.
15. Colwell J., Payne J. Negative correlates of computer game play in adolescents // British Journal of Psychology, 2000, №: 91, pp. 295-310.
16. Gross E.F. Adolescent internet use: What we expect, what teens report // Journal of Applied Developmental Psychology, 2004, №: 25, pp. 633-649.
17. Jeong H., Woo Y. H., Jo S. J., Lee S. Y., Lee H. K. Gaming patterns and related symptoms in adolescents using cluster analysis: Baseline results from the internet user cohort for unbiased recognition of gaming disorder in early adolescence (iCURE) study // Environmental research, Published by Elsevier Inc. 2019, pp. 1-32.
18. Kerimova Melek, Gunuc Selim. Adaptation of Internet Addiction Scale in Azerbaijani Language: A Validity-reliability and Prevalence Study // Journal of education and training studies, Published by Redfame, Vol. 4, №: 1, Jan., 2016, pp. 39-48.
19. Kuss D. J., Rooij A. J., Shorter G. W., Griffiths M. D. Internet addiction in adolescents: Pervalence and risk factors // Computers in Human Behavior, №: 29, 2013, pp. 1987-1996.
20. Tsitsika A., Janikian M., Schoenmakers T., Tzavela E. Internet addictive behavior in adolescence: A cross-sectional study in seven european countries // Cyberpsychology, Vol. 17, 2014, pp. 1-8.

### Analysis of the relationship between internet addiction and aggressive behavior in adolescents

**Summary**

The aim of the study was to determine the relationship between Internet addiction and aggression. The rapid development of the Internet creates the conditions for regular research. The changing needs for using the Internet over the years have led to ongoing research. The study was conducted on younger and older adolescents in secondary school No. 266 of Nasimi district. The survey was attended by 137 respondents. The study was conducted on randomly selected adolescents according to certain criteria. It consists of analyzing the statistical relationship between Internet addiction and the aggressive behavior of adolescents. The study found a connection between some indicators of Internet addiction and aggressive behavior. The hypothesis was justified. A statistically significant correlation was found between a measure of lack of internet and a measure of anger. The results of the study play an important role in the analysis and purpose of future scientific work.

**Анализ взаимосвязи между интернет-аддикции и агрессивным поведением у подростков**

**Резюме**

Целью исследования было определение взаимосвязи между интернет-зависимостью и агрессией. Бурное развитие интернета создает условия для регулярных исследований. Меняющиеся потребности в использовании интернета в разные годы заставляют проводить постоянные исследования. Исследование было проведено на младших и старших подростках в средней школе № 266 Насиминского района. В опросе приняли участие 137 респондентов. Исследование проводилось на случайно отобранных подростках по определенным критериям. Он состоит из анализа статистической связи между интернет-зависимостью и агрессивным поведением подростков. Исследование выявило связь между некоторыми показателями интернет-зависимости и агрессивным поведением. Гипотеза была оправдана. Статистически значимая корреляция была обнаружена между показателем отсутствия интернета и показателем гнева. Результаты исследования играют важную роль в анализе и цели будущей научной работы.

**Rəyçi: p.f.d. A.Abbasova**

Göndərilib: 22.05.2020 Qəbul edilib: 23.05.2020